# Türkdilli xalqların Beynəlxalq Konfransı



2021-ci il noyabrın 23-dən 26-na qədər Türkiyənin Ankara şəhərində Qazi Universitetinin Təhsil Elmləri İnstitutu və Distant Təhsilin Tətbiqi və Araşdırma Mərkəzi tərəfindən Türk Dünyası Təhsil Elmləri Konfransı keçirilib. 3 gün davam edən konfransda bölmələr üzrə 130-a qədər məruzə dinlənilib.

Konfransa Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və b. ölkələrin nümayəndələri dəvət olunublar. Tədbirdə Azərbaycandan beş nəfər - Təhsil İnstitutunun direktor müavini Ənvər Abbasov, şöbə müdirləri Piralı Əliyev və Könül Abaslı, Xəzər Universitetinin dekanı Elza Səmədova və müəllimi Zəminə Ziyayeva iştirak ediblər.

Konfransda türkdilli xalqların elm, təhsil və mədəniyyətinin inkişafı, əlaqələri və digər məsələlər müzakirə olunub.

Konfransın açılışında "Sarı gəlin" və Tofiq Quliyevin bir mahnısının ifa edilməsi, bir panel müzakirəsində dörd çıxışçıdan birinin (Könül Abaslının) Azərbaycandan olması, eləcə də bölmələrdə ölkəmizi təmsil edən nümayəndələrin məruzələrinin maraqla qarşılanması fəxarət və qürur hissi doğurub.

Konfrans öz işini noyabrın 26-da başa çatdırıb.

Azərbaycan müəllimi.- 2021.- 10 dekabr.- S.11.